## Həmkarımızın yeni kitabı

# Bir daha repressiyalar burulğanı haqqında

**"Azərbaycan" qəzetinin Humanitar siyasət şöbəsinin redaktoru, Əməkdar jurnalist İradə Əliyevanın rus dilində "Vodovorot repressiy" ("Repressiyalar burulğanı") kitabı çapdan çıxıb. Kitab Azərbaycanın ötən əsrin 30-cu illərində Stalin repressiyalarının günahsız qurbanı olmuş bir sıra görkəmli elm, mədəniyyət, ədəbiyyat xadimlərinin, mütəxəssis və ziyalılarının həyat və fəaliyyətindən bəhs edir.**




Bu mövzu jurnalist İradə Əliyevanın çoxillik yaradıcılığında xüsusi yer tutur. Azərbaycanın say-seçmə övladlarının heç bir səbəb olmadan "xalq düşməni" elan edilməsi, onların ağlagəlməz işgəncələrə məruz qalması və beləcə ömrünə vəhşicəsinə son qoyulması həmkarımızı illərdir narahat edən məsələdir. Elə bu səbəbdən də uzun müddətdir onların həyatını, fəaliyyətini, faciələrini öyrənməkdədir. Nəticədə onlarla sanballı məqalə və nəhayət, dəyərli kitablar ortaya qoyub.

"Azərbaycan" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Bəxtiyar Sadıqovun və tarix elmləri doktoru, professor Sani Hacıyevin redaktorluğu ilə çıxan yeni kitab da İ.Əliyevanın sözügedən mövzuya sadiq qaldığının göstəricisidir. Müəllif yazır ki, hələ 1993-cü ildə görkəmli tarixçi alim, akademik Ziya Bünyadovun 30-cu illərin qurbanları ilə bağlı istintaq materialları əsasında yazılmış məqalələrinin tərcüməsi və çapa hazırlanması işi ilə məşğul olarkən onda bu mövzuya xüsusi maraq yaranmışdır. Belə ki, həmin materiallarda 30-dan çox repressiya qurbanının faciəli taleyi öz əksini tapıb.

Kimdir İradə Əliyevanın qəhrəmanları? Ruhulla Axundov, Heydər Hüseynzadə, Teymur Salahov, Ömər Faiq Nemanzadə, Bəkir Çobanzadə, Əhməd bəy Pepinov, Xədicə Qayıbova və onlarla digərləri. Hərəsinin cəmi 15 dəqiqə çəkmiş yalan, iftira, böhtandan ibarət məhkəməsinin o tayında qalmış yüzlərlə həqiqət, Vətənə, xalqa xidmət nümunəsi, xeyirxah əməl var idi ki, onilliklərlə arxivlərdə "sirr" kimi gizlədilmişdi. İradə Əliyevanın oçerk və məqalələri məhz bu "sirr"lərin oxucuya çatdırılması, həm də ətraflı, dəqiq, oxunaqlı dildə çatdırılması baxımından qiymətləndirilməlidir.

Qırmızı terrorun qurbanlarından biri - Teymur Salahovun keçdiyi qısa, bununla belə, dolğun və mənalı ömür yolunu müəllif oxucusuna sənədli povest janrında çatdırır. Bir partiya işçisi kimi xidmət etdiyi quruluşa sadiq olan bu insan sözün əsl mənasında şərə, böhtana düşmüşdü. Stalinin əksəriyyəti erməni olan tərəfdaşlarının gözü Salahovu götürmürdü. Odur ki, ona "xalq düşməni" damğası vurub güllələnməsinə nail oldular.

Bu, yalnız bir nümunədir. İradə Əliyevanın kitabındakı qəhrəmanlarının hər biri öz sahəsində beləcə intizamlı, savadlı və ən başlıcası, perspektivli cavan insanlar idi.

Qaldı ki kitabın rus dilində nəşrinə, bunun da öz əhəmiyyəti var. Belə ki, rusdilli oxucular da repressiya burulğanlarında "batırılmış", "boğulmuş", məhv edilmiş Azərbaycan övladları haqqında səhih məlumat əldə edəcəklər. Hələ çox xeyir verə biləcək insanların sovet hakimiyyətinin Stalin rejimi dövründə Azərbaycan xalqının başına gətirilən bəlalarla aradan götürülməsi barədə həqiqətləri biləcəklər. Kitab ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımıza, eləcə də xarici vətəndaşlara xalqımızın çoxəsrlik tarixinin müəyyən bir dövrünü öyrənməkdə dəstəkçi olacaq.

***Flora SADIQLI,***
***"Azərbaycan"***